

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 231 (23.393)

*7 dekabr 2019-cu il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva dekabrın 6-da Şamaxı rayonunda Şahxəndan türbəsinin ətrafında aparılan abadlıq işləri ilə tanış olublar.

Dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verilib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva həmin gün Azərbaycanın filosof şairi İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə mütəfəkkirin anadan olduğu Şamaxı rayonunda keçirilən ağacəkmə aksiyasında da iştirak ediblər.

Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın təşəbbüsü ilə keçirilən bu aksiya çərçivəsində bir gündə ölkəmizdə 650 min ağac əkilib.

Respublikamızın bütün ərazisini əhatə edən ağacəkmə aksiyası çərçivəsində, ümumilikdə, 83 şəhər və rayonda 38 növdə 650 min ağac əkilib. Aksiya ilə əlaqədar Ekologiya və Təbii Sərvətlər Nazirliyi ağacların əkiləcəyi ərazilərin elektron xəritəsini hazırlayıb. Şəhər və rayon icra hakimiyyətləri tərəfindən ərazilərdə müvafiq hazırlıq işləri görülüb. Əkilən ağacların becərilməsində damcılı suvarma sistemindən və suvarma kanallarından istifadə olunacaq.



# Şahbuz rayonunun Türkeş kəndində qapalı suvarma şəbəkəsi istifadəyə verilib

Muxtar respublikada qurulan qapalı suvarma şəbəkələri kənd yerlərində əhalinin məşğulluğunun təmin olunmasına mühüm töhfə verir. Son illər istifadəyə verilən qapalı suvarma şəbəkələri hesabına 5 min hektara yaxın yeni torpaq sahələri əkin dövriyyəsinə qatılmışdır.





Dekabrın 6-da Şahbuz rayonunun Türkeş kəndində yeni qapalı suvarma şəbəkəsi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.

Məlumat verilmişdir ki, qapalı suvarma şəbəkəsi qurulmamışdan əvvəl Türkeş kəndinin bu ərazilərini suvarmaq mümkün deyildi. Lakin 343 hektar torpaq sahəsini əhatə edən yeni qapalı suvarma şəbəkəsi kənddə əkinçiliyin inkişafına mühüm töhfə verəcəkdir. Heydər Əliyev Su Anbarından qidalanan "Əcəmi-1" və "Əcəmi-2" pilləli nasos stansiyaları vasitəsilə su Türkeş kəndi ərazisindəki hovuza vurulur və öz axını ilə qapalı suvarma şəbəkəsinə ötürülür. Hovuzdan sahələrə qədər 1500 metr uzunluğunda magistral, 2100 metr ana xətt, diametri 200 millimetrlik plastik borularla 32 min 184 metr paylayıcı boru xətti çəkilmişdir. Paylayıcı boru xətlərinin üzərində 332 suvarma hidrantı və üç istiqamətə çıxışı olan dəmir-beton hovuzlar quraşdırılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov qapalı suvarma şəbəkəsinin istifadəyə verilməsi münasibətilə sakinləri təbrik edərək demişdir: Bu il Türkeş kəndinin həyatında əlamətdar il olmuşdur. Kənddə geniş quruculuq işləri aparılmış, 350 hektara yaxın pay torpaqlarını əhatə edən qapalı suvarma şəbəkəsi qurulmuşdur. Həyata keçirilən bu tədbirlər insanların rahat yaşayışı və məşğulluğunun təmin olunmasında mühüm əhəmiyyət daşıyır. Qapalı suvarma şəbəkəsi Azərbaycan Respublikası Prezidentinin Pivot layihəsi çərçivəsində əkin sahələrində müasir suvarma sistemlərinin quraşdırılması barədə imzaladığı müvafiq Sərəncama əsasən ayrılmış vəsait hesabına tikilmiş, bununla da muxtar respublikada 350 hektara yaxın məhsuldar torpaqlar əkin dövriyyəsinə qatılmışdır.

Ali Məclisin Sədri demişdir: Qapalı suvarma şəbəkəsinin qurulması və torpaqların



əkin dövriyyəsinə qatılması muxtar respublikada ərzaq təhlükəsizliyinin təmin olunmasına xidmət edir. Eyni zamanda kənd sakinlərinin yaşayış səviyyəsi yaxşılaşır. Ərazidə görülən işlərin həcmi çox böyükdür. Tikinti işləri aparılarkən 35 kilometrdən artıq müxtəlif diametrli borularla yeraltı şəbəkə qurulmuşdur. Bu işlərin görülməsi üçün dövlət vəsaiti sərf olunmuşdur. Ona görə də torpaqlar əkilməli, yaradılan şəraitdən səmərəli istifadə olunmalıdır. Ərazinin daimi su təminatı, torpaqların münbitliyi və məhsuldarlığı burada ikinövbəli əkinlərin aparılmasına da imkan verəcəkdir. Bir sözlə, görülən işlər öz bəhrəsini verməli, kənd sakinləri muxtar respublikanın ərzaq təhlükəsizliyinin təmin olunmasında iştirak etməlidirlər.

Ali Məclisin Sədri demişdir: İnsan var ki, sağlığında əməlləri ölkəsinə, xalqına xeyir verir. İnsan da var ki, həm sağlığında, həm də yoxluğunda onun əməlləri yaşayır, insanlara doğru yol göstərir. Bu gün ümummilli liderimiz Heydər Əliyevin yolu, əməlləri yaşayır və bəhrəsi göz qabağındadır. Türkeş kəndində aparılan quruculuq işləri, istifadəyə verilən qapalı suvarma şəbəkəsi də ulu öndərin siyasi xəttinin bəhrəsidir. Kənddə torpaqların əkilməsi, təsərrüfatların inkişafı, istehsal olunan məhsulların satışı üçün hər cür şərait yaradılıb. Məqsəd muxtar respublikanı, ölkəmizi daha da inkişaf etdirməkdir.

Ali Məclisin Sədri qapalı suvarma şəbəkəsinin yerli mütəxəssislər tərəfindən qurulduğunu bildirmiş, bu münasibətlə Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin əməkdaşlarına təşəkkür etmişdir.

Kənd sakini Əli Mehnətov minnətdarlıq edərək demişdir: "Türkeş qədim türk kəndidir. Kəndin bugünkü inkişafı bizim üçün möcüzədir. Çünki kənddə 70 ildə görülə bilməyən işlər 7 ayda həyata keçirilib. Bura yolu düşənlər Türkeşi cənnət hesab edəcəklər. Dünya standartlarına uyğun yol, gözəl məktəb, kənd və xidmət mərkəzlərinin istifadəyə verilməsi insanlara göstərilən qayğının ifadəsidir. Su həyat, canlanma deməkdir. Su varsa, deməli, dolanışıq da var. Muxtar respublikada elan olunmuş "Ailə təsərrüfatları ili"ndə Türkeş kəndində qapalı suvarma şəbəkəsinin qurulması sakinlərin hədsiz sevincinə səbəb olmuşdur. Bütün bunlar ulu öndər Heydər Əliyevin uzaqgörən siyasətinin uğurla həyata keçirilməsinin nəticəsidir. Ölkəmiz, xalqımız daha böyük uğurlar əldə edəcəkdir. Qoy uğurlarımıza dostlar sevinsin, düşmən isə xar olsun".

Sonra Ali Məclisin Sədri qapalı suvarma şəbəkəsini işə salmışdır.

Ali Məclisin Sədri torpaqların əkin atlasına uyğun əkilməsi, kənd sakinlərinin məhsuldar toxum sortları, gübrə və texnika ilə təmin olunması, güzəştli kreditlərin verilməsi və yeni qapalı suvarma şəbəkələrinin qurulması barədə aid təşkilatlara tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş





Dekabrın 6-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Türkiyə Respublikasının Ticarət nazirinin müavini Rza Tuna Turaqayın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Ali Məclisin Sədri qonaqları salamlamış, Naxçıvanla əlaqələrin inkişafına və nümayəndə heyətinin səfərinə verdiyi dəstəyə görə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana hörmət və ehtiramını bildirmişdir.

Ümummilli liderimiz Heydər Əliyev tərəfindən 1992-ci ildə Naxçıvan Muxtar Respublikası ilə Türkiyə arasında qarşılıqlı münasibətlərin əsasının qoyulduğunu bildirən Ali Məclisin Sədri ötən dövrdə ordu quruculuğu, təhsil, səhiyyə və iqtisadi sahələrdə əlaqələrin inkişaf etdiyini, İqdırda Naxçıvan Ticarət Evinin fəaliyyət göstərdiyini qeyd etmişdir. Ali Məclisin Sədri Naxçıvanın Moskva və Qars müqavilələrinə əsasən təsbit olunan muxtariyyət statusunu xatırlatmış, muxtar respublikada inkişafın, xüsusilə ərzaq və enerji təhlükəsizliyinin təmin olunduğunu bildirmiş, mövcud potensialın əməkdaşlıq üçün daha geniş imkanlar açdığını vurğulamışdır.

Ali Məclisin Sədri ölkə Prezidentlərinin iradəsinə uyğun olaraq Azərbaycan-Türkiyə əlaqələrinin nümunə gücündə olduğunu diqqətə çatdırmış, nümayəndə heyətinin səfərinin Naxçıvanda istehsal olunan məhsulların Türkiyəyə ixrac imkanlarının artırılması baxımından əhəmiyyətli olacağına əminliyini ifadə etmişdir.

Türkiyə Respublikasının Ticarət nazirinin müavini Rza Tuna Turaqay səmimi qəbula görə nümayəndə heyəti adından minnətdarlıq etmiş, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını Ali Məclisin Sədrinə çatdırmışdır.

Ölkələrimiz arasındakı əlaqələrdən bəhs edən Rza Tuna Turaqay qardaş ölkənin Naxçıvan Muxtar Respublikası ilə əlaqələrin inkişafına mühüm əhəmiyyət verdiyini vurğulamışdır. Qonaq Naxçıvan Muxtar Respublikasının qısa müddətdə böyük inkişaf yolu keçdiyini və bunun mövcud əlaqələrin inkişafı üçün geniş imkanlar açdığını qeyd etmişdir. Türkiyə Respublikasının Ticarət nazirinin müavini Naxçıvan məhsullarının Türkiyə bazarlarına çıxarılması imkanlarının artırılmasına mühüm əhəmiyyət verdiklərini və nümayəndə heyətinin səfərinin bu baxımdan önəmli olacağını bildirmişdir.

Türkiyə Respublikasının Naxçıvandakı Baş konsulu Məhmət Emin Kiraz görüşdə iştirak etmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Rza Tuna Turaqay: "Gördüklərimə, öyrəndiklərimə əsasən deyə bilərəm ki, Naxçıvanın iqtisadiyyatı çoxşaxəli şəkildə artan templə inkişaf edir"



Türkiyə Respublikasının Ticarət nazirinin müavini Rza Tuna Turaqay Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində əvvəlcə Sədərək Gömrük İdarəsi üçün tikintisi davam edən yeni komplekslə tanış olub. Məlumat verilib ki, 18 hektar ərazidə inşa olunan kompleks yük xətti və anbarlardan, sərnişinlərin keçid zallarının da yerləşdiyi inzibati binadan, yoxlama-baxış sistemləri bölməsindən və sürətli keçidin təmin edilməsi üçün nəzərdə tutulan VİP və CİP zallarından ibarət olacaq. Gömrük nəzarəti və rəsmiləşdirilməsinin texnoloji sxeminə uyğun olaraq giriş-çıxış zolaqları bir-birindən ayrı nəzərdə tutulub. Üç zolaqla avtobus və minik, iki zolaqla isə yük nəqliyyat vasitələri hərəkət edəcək. Bir zolaq isə sürətli keçid üçün istifadə olunacaq.

Sərnişin keçid zalında gömrük əməliyyatları və sərhəd nəzarətinin həyata keçirilməsi üçün xidməti otaqlar, eləcə də yerli məhsullar satılan "DUTY FREE" və kafe yerləşəcək. Avtonəqliyyat vasitələrinin və sərnişinlərin keçidi üçün nəzərdə tutulan binanın ikinci və üçüncü mərtəbələrində xidməti otaqlar yaradılıb. Kompleksdə sərnişin və yük qatarlarının gömrük nəzarətindən keçməsi üçün də lazımi şərait yaradılacaq, kinoloji xidmət fəaliyyət göstərəcək.Yeni gömrük kompleksinin istifadəyə verilməsi gömrük nəzarəti və rəsmiləşdirilməsinin müasir tələblər səviyyəsində həyata keçirilməsinə şərait yaradacaq. Bu da iqtisadi-ticarət əlaqələrini genişləndirməklə yanaşı, həm də muxtar respublikanın əlverişli tranzit imkanlarından və turizm potensialından səmərəli istifadəyə yol açacaq.



Naxçıvan Biznes Mərkəzinə gələn qonağa məlumat verilib ki, mərkəzin sərgi salonunda 94 müəssisənin 196 növdə məhsulu, 65 ailə təsərrüfatında istehsal olunan 20 növdə 157 çeşiddə məhsul, sənətkarlar tərəfindən hazırlanan əl işləri, rəsm əsərləri, xalçalar və Naxçıvan Muxtar Respublikasının istehsal müəssisələrinin xəritəsi nümayiş edilir. Vurğulanıb ki, həyata keçirilən tədbirlərin nəticəsi olaraq bu gün muxtar respublikada 383 növdə məhsul istehsal edilir, bunun da 126 növü ərzaq, 257 növü isə qeyri-ərzaq məhsullarıdır. Əhalinin 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbatı tamamilə yerli imkanlar hesabına ödənilir.

Türkiyə Respublikasının Ticarət nazirinin müavini Rza Tuna Turaqay "Şərq qapısı" qəzetinə müsahibəsində deyib:

– Naxçıvana gəlişimizin məqsədi muxtar respublika ilə ticarət əlaqələrimizi daha da genişləndirmək üçün müzakirələr aparmaqdır. İqtisadiyyat, gömrük sahələrində qarşılıqlı əməkdaşlığı gücləndirmək üçün Naxçıvan Biznes Mərkəzində hər iki tərəfin dövlət rəsmiləri arasında geniş tərkibdə görüş keçirildi. Muxtar respublikadan alacağımız məhsulların çeşidini, həcmini artırmaq istiqamətində danışıqlar apardıq, bu sahədə gələcək perspektivləri müəyyənləşdirdik.

Onu da deyim ki, Türkiyə dövləti Naxçıvan Muxtar Respublikası ilə əməkdaşlığı inkişaf etdirmək üçün bütün səylərini göstərir. Bundan əvvəl də bu yöndə bir sıra geniş tədbirlər keçirilib və həmin görüşlər zamanı müvafiq qərarlar qəbul olunub. Budəfəki görüşümüz də həmin qərarlar üzərində quruldu. Xüsusilə Naxçıvandan Türkiyəyə qida məhsullarının ixracının, eləcə də iki ölkə arasında ticarət əlaqələrinin inkişaf etdirilməsi üçün gömrük sahəsində daha hansı irəliləyişlərə nail olmağın mümkünlüyünü müzakirə etdik. Bütün bunları həyata keçirməkdə bir məqsədimiz var: hər iki qardaş ölkənin, həm Azərbaycanın, həm də Türkiyənin birlikdə yüksəlişini təmin etmək, xüsusilə də Naxçıvan Muxtar Respublikasının inkişafı üçün geniş imkanlar açmaq. Bu sahədə bundan sonra da əlimizdən gələni etməyə hazırıq.

Səfər çərçivəsində Sədərək Gömrük İdarəsi üçün tikintisi davam edən yeni komplekslə də tanış oldum. Həqiqətən də, həmin kompleks mükəmməl quruluşa, geniş imkanlara malik olacaq. Bu, bir qardaş ölkənin vətəndaşı olaraq bizi çox qürurlandırdı. Yolboyu Naxçıvanın bir sıra kəndlərini də gördük. Yaşayış məntəqələrinin infrastrukturu inanılmaz dərəcədə gözəl və baxımlıdır. Kəndlərdəki məktəblər barədə öyrəndiklərimdən sonra deyə bilərəm ki, Naxçıvanda təhsil sahəsində də böyük işlər görülüb. Naxçıvan şəhərinin siması heyranedicidir, yenitipli yaşayış binaları, tarixi abidələr şəhəri daha da zəngin göstərir. Naxçıvan Biznes Mərkəzi ilə tanışlıq zamanı muxtar respublikada ixracata hazır olan 383 növdə məhsulun istehsal olunduğunu öyrəndim. Həqiqətən də, bu, çox qürurverici haldır. Hər bir məhsulun çeşidi ilə ayrı-ayrılıqda yaxından maraqlandım. Gördüklərimə, öyrəndiklərimə əsasən deyə bilərəm ki, Naxçıvanın iqtisadiyyatı çoxşaxəli şəkildə artan templə inkişaf edir. İnanırıq ki, burada istehsal olunan məhsulların böyük əksəriyyətini Türkiyəyə ixrac edəcək və muxtar respublikanın iqtisadiyyatına böyük töhfələr verəcəyik.

Qeyd edək ki, Türkiyə Respublikasının Ticarət nazirinin müavini Rza Tuna Turaqayın Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində bu gün "İstehlak Mallarının Ekspertizası Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin Mərkəzi Qida Sınaq Laboratoriyası, Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin Gömrük Ekspertizası İdarəsi, "Gəmiqaya Mebel Fabriki" Məhdud Məsuliyyətli Cəmiyyəti ilə də tanış olacağı nəzərdə tutulur.

**✍ Nail ƏSGƏROV**

# Büdcədən maliyyələşən təşkilatların nümayəndələri üçün sığorta işinin əhəmiyyəti barədə tədbir keçirilib

Dünən Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyində dövlət büdcəsindən maliyyələşən təşkilatlarda sığorta işinin təşkili məsələləri ilə bağlı tədbir keçirilib. Maliyyə nazirinin müavini Həsən İsmayılov tədbirdə çıxış edərək sığortanın müasir cəmiyyət həyatındakı rolundan və dövlət maliyyə siyasətinin həyata keçirilməsində onun əhəmiyyətindən danışıb. Bildirilib ki, inkişaf etmiş və yüksək göstəricilərə malik bütün dünya ölkələrində dövlət maliyyə sisteminin inkişafında sığorta sahəsi də mühüm rol oynayır.

Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyinin baş direktoru Hikmət Əsgərov çıxışında bildirib ki, muxtar respublikamızda sosial-iqtisadi inkişafın sürətlənməsi ilə sığortaya da olan maraq artmaqdadır. Eyni zamanda insanların həyatı, sağlamlığı və əmlakının qorunması üçün zəruri tədbirlər görülsə də, qaçılması mümkün olmayan hadisələrdən zərər dəyməsi hər zaman baş verə bilər.

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikasında sığorta işinin müasir tələblər səviyyəsində qurulması istiqamətində ölkəmizdə qüvvədə olan qanunlara əsasən icbari və könüllü sığorta növləri üzrə bir sıra işlər aparılmaqdadır. Bu baxımdan sığortanın müasir tələblərə uyğun şəkildə qurulması işində 30 noyabr 2011-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Muxtar respublikada sığorta fəaliyyəti və qarşıda duran vəzifələr barədə" keçirilən müşavirədə verilmiş tapşırıqların mühüm əhəmiyyəti olub. Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin onuncu sessiyasında Dövlət Baş Sığorta Agentliyi qarşısında sığorta işinin təkmilləşdirilməsi, könüllü sığortanın tətbiqi və səyyar xidmətin əhatə dairəsinin genişləndirilməsi, insanların maarifləndirilməsi, sığorta bazarında aqrar sektorun xüsusi çəkisinin artırılması üzrə qoyulan tapşırıqların icrası istiqamətində bir sıra tədbirlər həyata keçirilib.

Bildirilib ki, hazırda muxtar respublikamızda müxtəlif sığorta növlərinin geniş yayılması baş verən gözlənilməz hadisələr zamanı sığortalı vətəndaşlara dəymiş maddi zərərlərin əvəzinin ödənilməsinə imkan yaradır.

Vurğulanıb ki, dövlət büdcəsindən maliyyələşən işçilərin istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığortası üzrə sığorta haqları dövlət büdcəsi hesabına ödənilir.

Tədbir iştirakçılarının diqqətinə sığorta ödənişlərinin verilməsi sahəsində qanunvericiliyin tələbləri də çatdırılıb. Bildirilib ki, dövlət müəssisələrində çalışanlar kollektiv üzvlərini maarifləndirmək və ünsiyyətdə olduğu vətəndaşları sığortanın əhəmiyyəti barədə məlumatlandırmaqla onlara köməklik göstərmiş olurlar.

Tədbirdə büdcə təşkilatlarında işləyən şəxslərin könüllü sığortalara cəlb olunmasının əhəmiyyətinə toxunulub. Qeyd edilib ki, yaradılmış şəraitdən istifadə etməklə sığorta işinin səmərəliliyinin artırılması üçün maarifləndirmə və təbliğat işlərinə geniş yer verilməli, bu barədə muxtar respublikanın hər bir vətəndaşı sığortanın əhəmiyyəti barədə məlumatlandırılmalıdır.

**✍ Əli CABBAROV**

## Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının sədri Dünya Şotokan Federasiyasının birinci vitse-prezidenti seçilib



*Dünya Şotokan Federasiyasının prezidenti Esat Delihasanın rəhbərlik etdiyi nümayəndə heyəti və Azərbaycan Milli Karate Federasiyasının prezidenti Yaşar Başirov Naxçıvan Muxtar Respublikasında səfərdə olublar. Səfər çərçivəsində əvvəlcə ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül dəstəsi qoyulub, ulu öndərin xatirəsi dərin ehtiramla yad edilib. Qonaqlar Heydər Əliyev Muzeyini ziyarət edərək ümummilli liderimizin həyatını və çoxşaxəli dövlətçilik fəaliyyətini əks etdirən eksponatlara baxıblar.*

Sonra qonaqlar Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya İdman Kompleksində yaradılan şəraitlə tanış olub, karateçilərin hazırladığı nümunəvi çıxışları izləyiblər. Dünya Şotokan Federasiyasının prezidenti Esat Delihasan və federasiyanın idarə heyəti Duzdağ Fizioterapiya Mərkəzində olub, dünya əhəmiyyətli təbii şəfa ocağının fəaliyyəti ilə maraqlanıblar.

Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasında keçirilən görüşdə qonaqları salamlayan federasiya sədri Fazil Ələkbərov Dünya Şotokan Federasiyasının və Azərbaycan Milli Karate Federasiyasının fəaliyyətinin muxtar respublikamızda da karate idman növünə marağın artmasında mühüm rol oynamasından danışıb.

Naxçıvan Muxtar Respublikasında olmaqdan qürur duyduğunu dilə gətirən Dünya Şotokan Federasiyasının və Türkiyə Cümhuriyyəti Karate Federasiyasının prezidenti Esat Delihasan dəvətə görə Karate-do Federasiyasının sədrinə minnətdarlığını bildirib. Vurğulayıb ki, bu gün Azərbaycanda, eləcə də onun Naxçıvan Muxtar Respublikasında karatenin inkişafı üçün hərtərəfli şəraitin yaradıldığının bir daha şahidi olduq. Müasir



idman zallarının, komplekslərin olması və idmançıların bunlardan səmərəli istifadəsi nəticəsində bu gün Naxçıvan karateçiləri iştirak etdikləri beynəlxalq yarışlarda uğurla mübarizə aparır, mükafatlar qazanırlar. Eyni zamanda 2020 Tokio Olimpiya Oyunlarında karatenin olması bu idman növünün bütün dünyada geniş yayılmasından xəbər verir. 2022-ci ildə isə keçiriləcək gənclər arasında olimpiadada karateyə geniş yer ayrılması federasiyanın uğurudur. Bu idman növünün olimpiya oyunlarına salınmasında Milli Karate Federasiyasının da mühüm rolu olduğunu diqqətə çatdırıb.

Görüşdə çıxış edən Karate-do Federasiyasının sədri Fazil Ələkbərov ilk olaraq Esat Delihasanı Dünya Şotokan Federasiyasına rəhbər seçilməsi münasibətilə təbrik edib. Qeyd olunub ki, karate sahəsində dünyadakı ən təcrübəli insanlardan birinin federasiyaya rəhbər seçilməsi sevindiricidir. Ölkə başçısının diqqət və qayğısı ilə Azərbaycanın hər yerində müasir idman kompleksləri tikilib istifadəyə verilir, mövcud idman obyektləri günün tələblərinə uyğun şəkildə yenidən qurulur, maddi-texniki baza möhkəmləndirilir. Peşəkar idmançıların yetişdirilməsi, bu sahədə qazanılan nailiyyətlərin ildən-ilə artması, beynəlxalq yarışlarda yüksək nəticələrin əldə olunması və ölkəmizin beynəlxalq yarışlara ev sahibliyi etməsi dövlətin bu sahəyə olan qayğısının nəticəsidir. Bu gün muxtar respublikamızda da gənclərin idmana cəlbi, onlara sağlam həyat tərzinin aşılanması diqqət mərkəzində saxlanılır. Yaradılan müasir idman mühiti isə gənclərin idmana olan marağını artırır, federasiyaların həyati ilbəil genişlənir, onların respublika və beynəlxalq miqyaslı yarışlarda iştirakı təmin edilir. Bütün bunların nəticəsidir ki, yeni idmançılar nəsli yetişir, müxtəlif idman növləri üzrə uğurların sayı daha da artır. Muxtar respublikada bu sahənin inkişafı mühüm istiqamət kimi müəyyənləşdirilib. Naxçıvanda hazırda 12 idman federasiyası fəaliyyət göstərir. Karate-do Federasiyası da onlardan biridir və yüksək dövlət qayğısı ilə əhatə olunub. Hazırda muxtar respublikada karate idman növü ilə 500-dən çox idmançı məşğul olur ki, onların da 100-dən çoxu qız idmançılarımızdır.



Fazil Ələkbərov diqqətə çatdırıb ki, son zamanlar idmançılarımızın keçirilən beynəlxalq yarışlarda uğurlu nəticələr əldə etmələri sevindiricidir. Eyni zamanda bu, məsuliyyətimizi də artırır. Əlaqələrin möhkəmlənməsi isə muxtar respublikada karatenin inkişafına xüsusi təkan verəcək. Bildiyiniz kimi, Naxçıvanda hər il beynəlxalq turnirlər təşkil olunur. Cari ilin may ayında ümummilli liderimiz Heydər Əliyevin xatirəsinə həsr edilmiş beynəlxalq turnir isə miqyasına görə daha geniş oldu. Burada Türkiyə və Gürcüstan komandalarının iştirakı, onların uğur qazanması bizi sevindirdi. Gələcəkdə daha genişmiqyaslı yarışlar keçirmək üçün Naxçıvanda hər bir imkan, şərait yaradılıb.

Karate-do Federasiyasının sədri vurğulayıb ki, Naxçıvanda uşaq və gənc idmançıların dünya səviyyəli tanınmış məşqçilər, federasiya rəsmiləri ilə görüşü yaddaqalan, həm də onlar üçün əlavə stimul olacaq. Dövlət qayğısı sayəsində muxtar respublikamızda idmançıların məşq etmələri üçün hərtərəfli şərait təmənnasız təşkil edilib.

Keçirilən görüşə görə minnətdarlığını bildirən Azərbaycan Milli Karate Federasiyasının prezidenti Yaşar Başirov çıxışında ulu öndər Heydər Əliyevin idman siyasətindən və bu gün ölkəmizdə bu sahəyə göstərilən dövlət qayğısından danışıb. Bildirib ki, Naxçıvan Muxtar Respublikasında digər idman sahələri ilə yanaşı, karate idman növü də sürətlə inkişaf edir. Bunun nəticəsidir ki, naxçıvanlı idmançılar keçirilən bütün yarışlarda uğur qazanırlar.

Karate idman növünün olimpiya oyunlarına salınmasının və belə mötəbər yarışda karateçilərimizin iştirakının ciddi hazırlıq işləri getməsindən də danışıb, dəstəyə görə federasiyanın sədri Fazil Ələkbərova minnətdarlığını bildirib.

Dünya Şotokan Federasiyasının texniki direktoru, Gürcüstan Respublikası Karate Federasiyasının prezidenti Kaxa Basilia dəvətə görə minnətdarlığını bildirib və qeyd edib ki, hazırda Türkiyə və Azərbaycan karateçiləri dünyada liderdirlər. Burada böyük komandalar və güclü idmançılar var. Buna səbəb yaradılan şərait və onlara göstərilən etimaddır. Gürcüstan bu sahədə nisbətən geri qalır. İnanıram ki, sizinlə birgə görəcəyimiz işlər karatenin ölkəmizdə də inkişafına səbəb olacaq. Naxçıvanı gəzmək imkanım oldu. Şəhər çox gözəl və səliqəlidir. Hər şey yerli-yerindədir ki, bu da bir şəhərin nə qədər inkişaf etdiyinin göstəricisidir.

Dünya Şotokan Federasiyasının vitse-prezidenti Hayrettin Hamurcu və baş katibi Ercument Taşdemir çıxış edərək bildiriblər ki, belə bir görüşün təşkili qürurvericidir. Bundan sonra birgə fəaliyyətimiz nəticəsində Naxçıvanda federasiya yeni uğurlara imza atacaq. Məqsədimiz burada daha çox beynəlxalq turnirlərin təşkilidir. Buna Karate-do Federasiyası ilə birgə nail olacağımıza inanırıq.

Sonda Karate-do Federasiyasının sədri Fazil Ələkbərov çıxış edərək bildirib ki, hər il beynəlxalq tədbirlərin keçirilməsi, əcnəbi idmançıların diyarımıza gəlməsi artıq ənənə halını alıb. Bu, muxtar respublika rəhbərinin idmana, idmançılarımıza göstərdiyi qayğının nəticəsidir. Federasiya sədri dəvəti qəbul edib, muxtar respublikaya gəldiklərinə, görüşdə iştirak etdiklərinə görə qonaqlara təşəkkürünü bildirib.

Dünya Şotokan Federasiyasının prezidenti və idarə heyətinin qərarına əsasən Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının sədri Fazil Ələkbərov Dünya Şotokan Federasiyasının birinci vitse-prezidenti seçilib.

Sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun idmanın inkişafına göstərdiyi diqqət və qayğıya görə təltif olunduğu xüsusi hazırlanmış medal və fəxri diplom Naxçıvan Muxtar Respublikasının Karate-do Federasiyasının sədrinə təqdim olunub.

Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının sədri Fazil Ələkbərov Dünya Şotokan Federasiyası, Azərbaycan Milli Karate Federasiyası və Gürcüstan Respublikası Karate Federasiyası tərəfindən fəxri diplom və hədiyyələrlə təltif olunub. Eyni zamanda Fazil Ələkbərova Dünya Şotokan Federasiyasının və Azərbaycan Milli Karate Federasiyasının 6-cı Dan dərəcəsi təqdim edilib.

Səfər çərçivəsində qonaqlar "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi, "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksini ziyarət edib muxtar respublikamızın zəngin tarixi, müasir inkişaf səviyyəsi, füsunkar gözəllikləri ilə tanış olublar. Onlardan bəzilərinin təəssüratlarını oxucularımıza təqdim edirik.



**Esat Delihasan – Dünya Şotokan Federasiyasının prezidenti:** – Bu mənim Naxçıvana ikinci səfərimdir. Muxtar respublikaya növbəti gəlişimiz karatenin buradakı nümunəvi inkişafı və kütləviliyi ilə bağlıdır. Son zamanlar naxçıvanlı idmançıların qazandıqları uğurlar bizim də diqqətimizdədir və bunları izləyirik. Türkiyə ilə Azərbaycan iki dövlət olsa da, bir millətik. Buna görə burada olmaq, bura gəlmək mənim üçün qürurdur. Naxçıvan şəhərindəki Olimpiya İdman Kompleksində uşaqların məşqini izlədik. Doğrudan da, onları izləmək, məşqlərində iştirak etmək gözəl hissdir. Onların gözlərində sevinci görməmək qeyri-mümkün idi. Heç şübhəsiz ki, bu idmançılar qarşıdakı illərdə digər təcrübəli idmançılar kimi Azərbaycanı layiqincə təmsil edərlər. Naxçıvanda beynəlxalq yarışların keçirilməsini Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının sədri ilə görüşümdə də müzakirə etdik. Qarşıdakı aylarda burada beynəlxalq yarışların keçiriləcəyini deyə bilərəm. Çünki muxtar respublika belə tədbirlərə ev sahibliyi etməyə qadirdir. Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyası sədrinin Dünya Şotokan Federasiyasının birinci vitse-prezidenti seçilməsi, heç şübhəsiz ki, bu idman növünün dünyəvi inkişafına, əməkdaşlığımızın möhkəmlənməsinə əhəmiyyətli təsir göstərəcək. Bir daha bizi burada gözəl qarşıladıqlarına, görüş təşkil etdiklərinə görə federasiya sədrinə minnətdarlığımı bildirirəm.



**Yaşar Başirov – Azərbaycan Milli Karate Federasiyasının prezidenti:** – Karate təkcə paytaxtda yox, ölkəmizin hər yerində geniş yayılıb. Buna Azərbaycanda idmanın maddi-texniki bazasının yaxşılaşdırılması nəticəsində nail olunub. Son illər müasirtipli olimpiya idman komplekslərinin, zalların inşası karatenin inkişafına da təkan verib. Xüsusilə də Naxçıvan Muxtar Respublikasında uşaq, yeniyetmə və gənclər karate ilə yaxşı şəraiti olan arenalarda məşğul olurlar. Biz Milli Karate Federasiyası olaraq idmanın inkişafına göstərdiyi diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova minnətdarlığımızı bildiririk. Bu gün istənilən sahədə olan inkişafı muxtar respublikada görmək mümkündür. Karatenin Naxçıvanda kütləvi hal alması üçün mühüm addımlar atılır. Burada keçirilən beynəlxalq turnirlər, eyni zamanda naxçıvanlı idmançıların beynəlxalq arenalarda uğurlu çıxışları gündən-günə artmaqdadır. Onu da qeyd edim ki, hər dəfə Naxçıvana gəldikdə buranın daha da gözəlləşdiyinin, abadlaşdığının şahidi oluram.

✍ **Ceyhun MƏMMƏDOV**

## Hakimlik seminarının ikinci günü qonaqlara hədiyyə və plaketlər təqdim olunub



5-6 dekabr tarixlərdə Naxçıvan Muxtar Respublika Stadionunda Azərbaycan Futbol Federasiyaları Assosiasiyası (AFFA) Hakimlər Komitəsinin sədri Fritz Stuxlikin keçdiyi seminarın ikinci günündə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman nazirinin müavini Mirməcid Seyidov da iştirak edib. O, nazirlik adından qonaqlara minnətdarlıq edərək bildirib ki, AFFA ilə uğurlu əməkdaşlıq sayəsində yerli hakimlərin bilik və bacarıqlarının artırılması, bu sahədə püxtələşmələri üçün məqsədyönlü addımlar atılır. Naxçıvanda digər idman növləri ilə bərabər, futbolun inkişafına da xüsusi diqqətlə yanaşılır.

Ötən dövr ərzində görülən işlərdən bəhs edən Mirməcid Seyidov nazirliyin AFFA və Naxçıvan Futbol Federasiyasının (NFF) plan və strategiyasını dəstəklədiyini bildirərək uğurlu gələcək naminə atılan addımların bəhrəsini verəcəyinə inamını ifadə edib. Daha sonra qonaqlara nazirliyin hədiyyə və plaketləri təqdim olunub.

Naxçıvanda olmaqdan məmnunluğunu bildirən Fritz Stuxlik regionda futbolun inkişafı üçün əlverişli şərait yaradıldığını və bu sahənin bir parçası olan hakimliyin də paralel olaraq inkişafının sevindirici olduğunu deyib. Gələcək hakimlər arasında gənclərin üstünlük təşkil etməsi perspektivləri daha da artırır. Məqsədimiz ölkə və beynəlxalq səviyyəli hakimlərin formalaşmasına nail olmaqdır. Göstərilən diqqət və qayğıya görə minnətdarlıq edən komitə sədri Naxçıvanda yerli hakimlərin istənilən səviyyədə yetişməsi üçün əlindən gələni edəcəyini deyib.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Futbol Federasiyasının Azərbaycan Futbol Federasiyaları Assosiasiyası ilə birgə əməkdaşlığı nəticəsində yerli hakimlərin sayı 30-a çatıb.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

*Estafet*

# Şərur Rayon Tarix-Diyarşünaslıq Muzeyi qədim bölgənin keçmişini yaşadan mühüm saxlanc yeridir



***Tarixin yadigarları onu yaradan, yazan xalqın gələcək nəsillərə əmanət etdiyi ən etibarlı mənbələrdəndir. Belə dəyərli mənbələrin saxlanc yeri isə muzeylərdir. Zəngin tariximizin və mədəni irsimizin öyrənilməsi, gələcək nəsillərə ötürülməsi baxımından muzeylər böyük əhəmiyyətə malikdir. Hazırda muxtar respublikamızda qədim diyarımızın zəngin tarixinin, mədəniyyətinin çoxşaxəli inkişaf yolunu əks etdirən onlarla belə mədəniyyət müəssisəsi var. Onlardan biri də Şərur Rayon Tarix-Diyarşünaslıq Muzeyidir.***

Burada olarkən muzeyin direktoru Nuran Əliyevlə söhbət zamanı öyrəndik ki, 1978-ci ildə rayon Mədəniyyət Şöbəsinin nəzdində ictimai əsaslarla yaradılan muzey 1980-ci ildə ulu öndər Heydər Əliyevin müvafiq sərəncamından sonra dövlət müəssisəsi olaraq fəaliyyətə başlayıb. Rayon ərazisində qədim insanların əmək fəaliyyətini və həyat tərzini əks etdirən, maddi mədəniyyət nümunələri ilə zəngin olan muzeydə tarixin dərin qatlarından soraq verən 7300-dən çox eksponat qorunub saxlanılır. Onlardan 4000-dən çoxu muzeyin bir-birindən maraqlı 13 guşəsində nümayiş olunur.

Muzeyin ən dəyərli guşəsi ümummilli liderimiz Heydər Əliyevin həyat və fəaliyyətinə həsr edilmiş guşədir. 2002-ci ildə ulu öndərin Naxçıvana səfəri zamanı Şərur torpağında olmasına dair fotomateriallar böyük bir ekspozisiya təşkil edir. Ulu öndər Heydər Əliyevin ailəsinə, onun uşaqlıq və gənclik illərinə aid stendlər, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrü əhatə edən materiallar, imzaladığı qərar və sərəncamlar, Azərbaycanın tanınmış oftalmoloqu, görkəmli akademik Zərifə xanım Əliyeva haqqında yazılan kitablar buradakı ən dəyərli, qiymətli eksponatlardandır.

Direktorla guşələri gəzərkən Şərur rayonunun flora və faunasının tarixini əks etdirən təbiət bölməsində nümayiş olunan müxtəlif eksponatlarla tanış olduq. Burada molyusktipli, daşlaşmış heyvan qalıqları, təbiət hadisələrinin təsiri nəticəsində müxtəlif forma almış daş fiqurlar, gürz və dən daşları yer alıb.





Arxeologiya bölməsi isə Şərur rayonu ərazisində yerləşən tarixi abidələrdə arxeoloji qazıntılar nəticəsində əldə edilən materiallarla diqqət çəkir. Bu bölmə Paleolit, Neolit, Eneolit, Tunc və Dəmir dövrlərini əhatə edən eksponatlardan ibarətdir. Qədim insanlara aid daşdan hazırlanmış əmək alətləri, tunc məmulatlar, IV- III minilliyə aid keramika nümunələri, tuncdan və muncuqlardan hazırlanmış bəzək əşyaları bölmənin qiymətli eksponatlarıdır. Burada nümayiş olunan Oğlanqala və Maxta Kültəpəsindən aşkar edilmiş boyalı qablar Şərurda sənətkarlığın yüksək inkişafından xəbər verir.

Rayonun etnoqrafiyasına həsr edilən digər bölmədə nümayiş olunan eksponatlar XVII-XX əsrlərin əvvəllərini əks etdirir. Nuran Əliyev deyir ki, bu eksponatlar rayon əhalisi tərəfindən muzeyə hədiyyə olunub. Bölmədə Şərur əhalisinin adət-ənənələrini özündə əks etdirən XVIII-XIX əsrlərə aid əkinçilik alətləri – kotan, yaba, vəl, gəm, xış, cüt, car-car, toxuculuq alətlərindən həmin əsrlərə aid yun darağı, teş, cəhrə, kirkit, xalçatoxuma dəzgahı və digər nümunələr rayonda sənətkarlığın müxtəlif növlərinin yayıldığını təsdiqləyir.

Digər bir bölmə isə numizmatika bölməsidir. Burada zərb olunmuş və pul dövriyyəsində işlənmiş pullar nümayiş etdirilir. Guşədə Səfəvilər, Naxçıvan xanlığı dövründə istifadə olunmuş pul vahidləri yer alıb. Həmçinin müxtəlif dövrlərdə digər dövlətlərin tədavülə buraxdığı pul vahidləri də sərgilənir ki, bu da Şərur rayonunda ticarətin keçmiş dövrlərdən inkişaf etdiyinin göstəricisidir.

Muzeydəki digər bir guşə isə Qırmızı taborla bağlıdır. Bu guşədə Şərur rayonunda erməni daşnaklarına qarşı mübarizə tarixinin müəyyən səhifələri əks olunub. XX əsrin 18-20-ci illərində Naxçıvan, İrəvan, Dərələyəz, Zəngəzur və digər ərazilərdə daşnak-erməni silahlı dəstələrinin azərbaycanlılara qarşı soyqırımlarının törədildiyi dövrdə qəhrəmanlıq göstərən Vətən oğullarına aid büst və fotoşəkillər, onlara məxsus şəxsi əşyalar nümayiş olunur. Guşədə, həmçinin o dövrdə yaşayan insanların xatirələrindən bəhs edən sənəd və məqalələr də öz əksini tapıb.

İkinci Dünya müharibəsində vuruşmuş Şərur rayon sakinlərinin xatirəsi də muzeydə əbədiləşdirilib. Həmin qəhrəmanlara aid fotoşəkillər, büstlər, şəxsi əşyalar, orden və medallar, müharibədən sonrakı illərdə müharibə iştirakçıları ilə çəkilən fotoşəkillər bölməni zənginləşdirən eksponatlar sırasındadır.

Qəhrəman oğullarımıza həsr edilmiş guşədə isə Azərbaycanın ərazi bütövlüyü uğrunda Sədərək, Qarabağ döyüşlərində igidlik göstərən şərurlulardan bəhs olunur. Bu qəhrəman Vətən oğullarının büstləri, fotoşəkilləri, onlar haqqında dərc edilən qəzet materialları muzeyin dəyərli eksponatlarındandır.

Şərur rayonu həm də tarixən xalçaçılığın inkişaf etdiyi bölgələrimizdən biri olub. Muzeydə bu sənət sahəsinin təbliğinə də böyük yer verilib. Belə ki, Şərurun sənətsevər qadınları tərəfindən toxunmuş müxtəlif xalça nümunələri – bərbəzəkli fərməşlər, xurcunlar, heybələr bu sənətin rayondakı tarixindən söz açır.

Mədəniyyət və incəsənət bölməsində məşhur "Şərur yallısı"nın dünyanın bir çox ölkələrində qazandığı hədiyyə və diplomlarla qarşılaşırıq. Burada, həmçinin şərurlu Aşıq Nabatın sazı, qədim ney, zurna, tulum, tütək və sair musiqi alətləri nümayiş etdirilir. Rayonun məşhur "Nuranı" yallı kollektivinin Almaniya, Polşa və başqa ölkələrdəki çıxışlarını, qastrol səfərlərini əks etdirən fotoşəkillər, albomlar, fəxri fərmanlar, prizlər və digər sənədlər də bölmənin dəyərli eksponatlarındandır. Həmçinin sovet dönəmində rayon Mədəniyyət Şöbəsinin layiq görüldüyü ümumittifaq və respublika keçici "Qırmızı bayraq"ları da bu guşəni bəzəyir.

Müsahibimizlə söhbət zamanı öyrəndik ki, bu gün muxtar respublikamızda muzeylərə böyük dövlət qayğısı göstərilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2014-cü il 19 dekabr tarixli "Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında" Sərəncamı muxtar respublikada muzeylərə kollektiv gedişi təmin edib. Sərəncama uyğun olaraq "Muzey günləri"nin tərtib olunması təşkilatların kollektivlərinin müxtəlif muzeyləri, eləcə də Şərur rayonundakı Tarix-Diyarşünaslıq Muzeyini ziyarət etməsinə, görkəmli şəxsiyyətlərin həyat və fəaliyyətini, tariximizi və milli dəyərlərimizi özündə yaşadan eksponatlarla əyani tanış olmasına şərait yaradıb. Bundan əlavə, Şərur məktəbliləri də mütəmadi olaraq burada olur, rayon ərazisindən tapılmış eksponatları muzeyə bağışlayırlar. Muğanlı kənd tam orta məktəbinin müəllim və şagirdləri tərəfindən muzeyə 75 eksponat təqdim olunub.

*Qədim tariximizin öyrənilməsi, təbliği və tanıdılması istiqamətində tarix-diyarşünaslıq muzeylərinin xüsusi rolu var. Belə ki, şanlı tarixə, zəngin mədəniyyətə malik olan Vətənimizin tarixi abidələrini, maddi-mədəniyyət nümunələrini qoruyub yaşatmaq, dünyaya təbliğ etmək hər birimizin üzərinə düşən tarixi vəzifədir. Çünki qədim abidələr xalqın tarixi, onun varlığını sübut edən dəlillərdir. Elə muxtar respublika rəhbərinin dediyi kimi:* ***"Hər bir xalqın tarixi o xalqın milli kimlik pasportudur. Müasir dövrdə o xalq mütərəqqi dəyərlərə malik xalq hesab olunur ki, onun qədim tarixi, dövlətçilik ənənələri, mədəniyyəti olsun. Bütün bunlar bizdə – tarix boyu bu torpaqlarda yaşamış Azərbaycan türklərində vardır..."***

**Günay İBRAHİMOVA**
*Naxçıvan Dövlət Universitetinin*
*II kurs tələbəsi*

## Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Xidməti üzrə 2019-cu ilin noyabr ayında verilən elektrik enerjisinin miqdarı, elektrik enerjisi satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Verilən elektrik enerjisinin miqdarı (min kvt/saat) | Elektrik enerjisinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 3742 | 277,0 | 277,0 | 100,0 |
| 2. | Şərur rayonu | 1514 | 107,3 | 107,3 | 100,0 |
| 3. | Babək rayonu | 1319 | 94,5 | 94,5 | 100,0 |
| 4. | Ordubad rayonu | 838 | 59,4 | 59,4 | 100,0 |
| 5. | Culfa rayonu | 987 | 70,0 | 70,0 | 100,0 |
| 6. | Kəngərli rayonu | 381 | 28,2 | 28,2 | 100,0 |
| 7. | Şahbuz rayonu | 433 | 31,0 | 31,0 | 100,0 |
| 8. | Sədərək rayonu | 166 | 11,8 | 11,8 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 26083 | 2347,5 | 2344,8 | 99,9 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **35463** | **3026,7** | **3024,0** | **99,9** |

**Qeyd:** Noyabr ayında texniki itki nəzərə alınmaqla daxil olan 35 milyon 463 min kilovat-saat elektrik enerjisinin dəyəri 3 milyon 26 min 700 manat olmuş, cəmi 3 milyon 24 min manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 99,9 faizini təşkil edir.

## Naxçıvan Muxtar Respublikası üzrə 2019-cu ilin noyabr ayında verilən təbii qazın miqdarı, təbii qaz satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri (manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 3739710 | 491214 | 491339 | 100,0 |
| 2. | Babək rayonu | 2016196 | 245170 | 245211 | 100,0 |
| 3. | Sədərək rayonu | 245347 | 26388 | 26392 | 100,0 |
| 4. | Ordubad rayonu | 958252 | 103404 | 103419 | 100,0 |
| 5. | Kəngərli rayonu | 698677 | 81710 | 81719 | 100,0 |
| 6. | Şahbuz rayonu | 575185 | 70907 | 70914 | 100,0 |
| 7. | Şərur rayonu | 1873840 | 215226 | 215245 | 100,0 |
| 8. | Culfa rayonu | 903944 | 98786 | 98794 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 10688949 | 1607984 | 1500444 | 93,3 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **21700100** | **2940789** | **2833477** | **96,4** |

### *İtmişdir*

Şərur rayonu, Məmmədsabir kəndində yaşamış Seyidov Nərman Baxşəli oğlunun adına verilmiş JN-120B, JN-120A nömrəli şəhadətnamələr itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Ədəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 840